Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Yurd sevgisinin qanadları



■ Flora XƏLİLZADƏ
*əməkdar jurnalist*

**Elə ki, mart ayı gəlir, yazın nəfəsi duyulur, Novruz bayramının çərşənbələri başlayır, bax onda bütün varlığımdan bir gizilti keçir, ürəyim də, gözlərim də heç sözümə baxmır. Xəyalım əlim yetməz, ünüm çatmaz doğma yerlərdə dolanır. Doğulduğum, böyüdüyüm kəndimizin - Urudun (Zəngəzur mahalı, Sisian rayonu) bütün dağı, dərəsi sanki üstümə yeriyir. Yurd sevgisinin gözə görünməz qanadları məni o bəxtəvər günlərimə aparır. Küncütlü qovurğanın ətri, qapımızda alovlanan tonqalın şəfəqləri, təndir damından ətrafa yayılan bihuşedici rayihələr, bir də anam yadıma düşür.**

Yazın qəribə qüdrəti var. Təkcə torpaq oyanıb sellər, sular çağlamır. Adamın ruhunda da qəribə bir oyanış baş verir. Bütün fəsli şəhərdə can rahatlığı ilə yaşasan da, elə ki Novruzun ətri gəlir, varlığında bir təlatüm baş verir. Doğma yerlər, xüsusilə də doğulduğun od-ocaq səni bir maqnit gücü ilə özünə çəkir. İyirmi səkkiz ilə dönür ki, belədir. Novruz sevinclə, şadlıqla bərabər bir xiffət, bir nisgil də gətirir bizlərə. Çünki ürəyin atlandığı yerə, xəyalın qopmadığı ünvana nə səsin yetişər, nə əlin çatar. İndi təbiətin və həm də yaşımın elə vədəsidir ki, ruhum hər havaya qanad açmaz ki... Məni ağuşuna alan və sıxan ancaq yurd sevgisinin qanadlarıdır.

Elə ki, yaz gəlir, ruhum məni öz əbədi ünvanına çəkir. Gündüzlər harada olmağından asılı olmayaraq, yuxularında doğma yurddasan. Novruz bayramı bütün xatirələrimi soğan qabığı kimi soyur. Az qala üzünü göylərə tutub haraylamaq istəyirsən: "Bir uçaydım bu çırpınan yelinən. Bir görəydim bizim ellər yerindəmi?" Amma nə fayda. Əlimiz heç nəyə çatmır. Şəhərli dostlarım məni qınamasınlar, Novruzunku kənddir. O yerdə ki, təbiət var, yaşıllıq var, yazın gəlişini pıçıldayan qaranquşlar ötür, qışın qar bağrını yaran bənövşələr boylanır, Novruz da ilkin ora üz tutur. Novruz təbiət bayramıdır. Heç fikir veribsiniz onun ilaxır çərşənbələrinin adına: Su, Od, Yel, Torpaq. Bunların qovuşduğu təbiətdir, həyatdır. Novruzun bütün mərasimləri təbiətlə bağlıdır. Çeşmələrdən su gətirmək, su üstündən tullanmaq, həyətlərdə tonqal qalamaq, torpağın qayğısını çəkmək. Yox, bunlar hamısı kəndə daha gözəldir. Şəhərdə hansı bulaqdan su gətirəcəyik, hansı dağın başında tonqal alışdıracağıq? Elə dərd də budur ki, dağlarımızın başı dumanlıdır, doğulduğumuz yerlərə uzanan yollar bağlıdır, yurd yerlərimizdə yağılar yallanır. Hərdən xatirələrin gücü ilə ötənləri yad etdikcə ürəyim qovrulur. Qədim Zəngəzur mahalının ağır elləri gözümün önünə gəlir. Uşaqlıqda elə bilirdim ki, Novruz bayramını təkcə bu bölgədə keçirirlər. Çünki öz ailəmizdən başlamış qonşulara qədər hamı ona elə ciddi-cəhdlə hazırlaşırdı ki...

Novruza on-onbeş gün qalmış qız-gəlinlər ev-eşiyi tökər, xalı-xalçanı günə verər, təmizlik işləri ilə məşğul olar, həyət-bacanı əhənglə ağardar, bağ-bağçanı çör-çöpdən təmizləyər, yaşlılara da kömək edərdilər. Oğlan uşaqlarının işi daha da artardı. Onlar təkcə arxı təmizləyib çöl işlərində valideynlərinə kömək etməklə kifayətlənmirdilər. Hər gün dəstə ilə meşəyə gedib xüsusi kol qırardılar. Onun adına el arasında "itdəyməz" deyərdilər. Novruz bayramında adətən o koldan tonqal qalayardılar. Həm gec sönərdi, həmdə gur yanardı, hisi olmazdı.

Uşaqlar o kolları hamının qapısına gətirərdilər. Yeniyetmələr isə beş-on gün dağların başına rezin təkərlər daşıyardılar. Dağların başında alışan tonqallar bir həftə sönməzdi. Hər dəfə evimizin qənşərindəki Qədim Qalanın (Ona Babək qalası da deyirlər-F.X.) şiş ucundakı alovu seyr etdikcə fərəhlənərdik. Bilirdik ki, qonşu kənddəki ermənilər o tonqalları gördükcə paxıllıqdan çatlayırlar.

Nənələrin də işi çox olurdu. Boğçalar bağlanırdı. Qonum-qonşuya, qohum-əqrəbaya sovqatlar tutulurdu. Bayram axşamı hamı təzə geyinərdi. Novruzda bütün həyətlərdən bihuşedici ətirlər gələrdi. Təndirlərdə nələr bişirilmirdi: çöçə (şəkərburaya oxşayır, içi ya qozdan, ya da qurudulmuş lobyadan hazırlanır -F.X.) şirinçörək, həsti qalın, fəsəli, qoğal... Soğan qabığından yumurta boyanardı. Bu da iki rəngdə olardı: sarı və qırmızı. Boşqablarda cücərdərdilər. Buna biz tərəfdə "boş- qab çəməni" (səməni) deyərdilər. Xüsusi torbada qoz, fındıq, müxtəlif ləbləbi, şirniyyat yığılardı. Torbatdıya (biz tərəfdə " papaqatdı" deməzdilər-F.X.) gələnlər üçün nəzərdə tutulardı. Xonçalar bəzənərdi. Torbaatdıya gələn əsl mərəkə çıxardardılar. Torbanı atdıqdan sonra oğlanlar qapını elə möhkəm tutardılar ki, ev sahibi heç vaxt bilməzdi ki, ondan sovqat istəyən kimdir. Bütün evlərdə plov dəmlənərdi. Amma buna baxmayaraq, yaxın qohum-qonşular bir-birlərinə bir boşqab plov və bayram şirniyyatları göndərərdilər. Səbəbi də bu idi ki, hər əlin öz dadı var.

Novruzda biz tərəflərin özəl hazırlığından biri də itburnudan düzəldilmiş turşudur. Kəndə bunu beş-on evdə hazırlayardılar. Böyük qazanlarda bişirilən bu dadlı və faydalı təamdan hamıya pay verilərdi. Adı turşu olsa da əslində şirin idi. Çünki içinə müxtəlif ədvalar, düyü və şəkər tozu vurulurdu. Novruzda analar doşab halvası hazırlayardılar. Bayramdan qabaq hamı ellikcə rəhmətə gedən doğmalarını yad edərdi, bu halva ordaca uşaqlara paylanardı. Bayram çörəyinin hazırlanması da tamam başqa cür olardı. Onun xəmirini suda yox, süddə yoğurardılar. Deyilənə görə, bunun da öz mənası var idi: yeni başlanan il bərəkətli və bolluq olsun!



Bayram axşamı Urudumuz elə gözəlliyə bürünürdü ki... Həm həyətlərdən xoş ətirlər gələrdi, həm də bayram ocaqlarının atəşi dağ başında ərşə ucalan tonqalların şəfəqlərindən nur içərək kəndin simasına qəribə coşqunluq gətirərdi. Həmin axşam qulaq falına çıxan qız-gəlinlərin ovqatı xoş olsun deyə, evlərdə nəhs söz danışmazdılar. Hamı bir-birilə mehriban rəftar edərdi. Aylarla küsülü olanlar barışardılar. Axır çərşənbənin sübhü qızlar səhəng götürüb bulağa gedərdilər. Sudan atlanar, əl-üzlərini yuyar, səhəngin dibinə bulağın gözündən 7 kiçik daş seçib atardılar. O sudan həyətə səpilər və çay qoyulardı. Daşlar isə unluğa, bal, yağ qablarına, çörək tabağına, evin künc-bucağına atılardı ki, nə qədər bu daşlar tərpənmir, evin bərəkəti də o qədər ömürlük olsun. Təbii ki, daşlar hər bayram yenilənərdi. Balacaların sevinci lap aşıb daşardı. Onlar ələlə tutaraq qapıları döyər və deyərdilər: "Çərşənbə çəliyimi ver". Ev sahibi də həmin uşaqları gülərüzlə qarşılayıb mütləq ləbləbi, şirniyyat, meyvə verərdi. Sovqatın içində boyanmış yumurta olmasaydı, nadinclər israr edib mütləq yumurta paylarını da alardılar.

Kənddə bir adət də maraqlı idi. Bayram axşamı çoxdan gözaltı edilmiş qızların evinə elçi gedərdilər. Bunun da səbəbi var idi. Bayramda heç kim acıdil, sərt olmur, qapıya gələni peşman qaytarmazdı. Hansı ailədən qız istəmək müşkül məsələ idisə, işi elə qurub düzərdilər ki, bayram axşamında elçi getsinlər. Nişanlı qızlar da öz istəklilərinə sovqat göndərərdilər. Qız evinə sovqat bağlamasını boş qaytarmazdılar. Burada bir özəllik də var idi: qız istəklisinə mütləq öz toxuduğu naxışlı corabı və yaxud da başqa bir libas göndərərdi. Bu, qayda idi. Oğlan evində həmin hədiyyəyə baxar, qızın əl qabiliyyətinə qiymət verərdilər. Bayram təntənəsi on günə kimi davam edərdi.

Nədənsə həmişə Novruz bayramı gələndə yadımıza Şəhriyarın, Səməd Vurğunun şeirləri düşür. Xüsusilə də "Heydərbabaya salam" mənzuməsi Novruz günlərində daha çox xatırlanır. Bu, ən çox onunla bağlıdır ki, ustad Şəhriyar bu məşhur əsərində Novruz bayramının sözlə portretini çox ustalıqla çəkib. Poemanın əksər bəndlərində Novruz mərasimlərinin təntənəsi o qədər doğma və zərif ifadə edilib ki, istər-istəməz Şəhriyar poeziyası doğma Novruzumuzun bir əlaməti kimi diqqət çəkir. Bu əsərin canlandırdığı mənzərələr sadəcə könül xoşluğu yaratmır, həm də bizim tariximizdi, adət-ənənəmizdi, həyatımızdı, dünəndən sabaha atılan körpülərdi:

*Bayram idi, gecəquşu oxurdu,*
*Adaxlı qız bəy corabı toxurdu,*
*Hər kəs şalın bir bacadan soxurdu,*
*Ah, nə gözəl qaydadı şal sallamaq,*
*Bəy şalına bayramlığın bağlamaq.*

Bütövlükdə "Heydərbabaya salam" mənzuməsi adamın ürəyinə elə xəfif toxunur ki, xəyalımızdan nələr keçmir?!

*Bir soruşun bu qarğımış fələkdən,*
*Nə istəyir bu qurduğu kələkdən?*
*Deynə, keçirt ulduzları ələkdən*
*Qoy tökülsün bu Yer üzü dağılsın,*
*Bu şeytanlıq qurğusu bir yığılsın...*

Yazımı yaradıcılığını müntəzəm izlədiyim və şeirlərində yurd itkisinin ağrısına büründüyüm şair qardaşım Əbülfət Mədətoğlunun misraları ilə tamamlayıram. Bu poetik suallarda ürəyimin xiffəti, doğma yurdun həsrəti elə təsirli və aydın güzgülənib ki...

*Havadan asıblar məni,*
*Ayağım torpağa çatmır.*
*Nə qədər cəhd göstərirəm,*
*Dodağım yarpağa çatmır.*

**Şəhərli dostlarım məni qınamasınlar, Novruzunku kənddir. O yerdə ki, təbiət var, yaşıllıq var, yazın gəlişini pıçıldayan qaranquşlar ötür, qışın qar bağrını yaran bənövşələr boylanır, Novruz da ilkin ora üz tutur. Novruz təbiət bayramıdır. Heç fikir veribsiniz onun ilaxır çərşənbələrinin adına: Su, Od, Yel, Torpaq. Bunların qovuşduğu təbiətdir, həyatdır. Novruzun bütün mərasimləri təbiətlə bağlıdır. Çeşmələrdən su gətirmək, su üstündən tullanmaq, həyətlərdə tonqal qalamaq, torpağın qayğısını çəkmək. Yox, bunlar hamısı kəndə daha gözəldir. Şəhərdə hansı bulaqdan su gətirəcəyik, hansı dağın başında tonqal alışdıracağıq?**

**Nənələrin də işi çox olurdu. Boğçalar bağlanırdı. Qonum-qonşuya, qohum-əqrəbaya sovqatlar tutulurdu. Bayram axşamı hamı təzə geyinərdi. Novruzda bütün həyətlərdən bihuşedici ətirlər gələrdi. Təndirlərdə nələr bişirilmirdi: çöçə (şəkərburaya oxşayır, içi ya qozdan, ya da qurudulmuş lobyadan hazırlanır - F.X.) şirinçörək, həsti qalın, fəsəli, qoğal... Soğan qabığından yumurta boyanardı. Bu da iki rəngdə olardı: sarı və qırmızı.**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***